AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpiyadunyasi.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*

*№ 25 (1425), 25 iyun - 1 iyul 2019-cu il*

*Qəzet 2001-ci ildən çıxır.*

## II Avropa Oyunları davam edir

### *Atletlərimiz 4 gümüş, 7 bürünc medal qazanıblar*

İyunun 21-də Belarusun paytaxtı Minskdə ikinci Avropa Oyunlarının açılış mərasimi keçirilib.

"Dinamo Arena"da keçirilən açılış mərasimini bir sıra ölkələrin dövlət və hökumət başçıları, o cümlədən Azərbaycan Respublikası Milli Məclisin sədri Oqtay Əsədov, Baş Nazirin birinci müavini Yaqub Eyyubov, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, Gənclər və İdman naziri Azad Rəhimov, Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə izləyiblər.

Gerisayım başa çatdıqdan sonra mərasim atəşfəşanlıqla açıq elan edilib. Orkestrin ifasında Belarusun dövlət himni səsləndirilib, bayrağı ucaldılıb. Sonra ikinci Avropa Oyunlarında iştirak edən komandaların paradı başlayıb. Əvvəlcə, Olimpiya Oyunlarını dünyaya bəxş etmiş ölkənin - Yunanıstanın idmançıları arenaya daxil olublar. Onların arxasınca digər ölkələrin komandaları ardıcıllıqla meydana çıxıblar.

*(ardı 2-ci səhifədə)*





## İkinci Avropa Oyunlarında iştirak edən idmançılarımızla görüş

İyunun 22-də Azərbaycan Respublikası Milli Məclisinin sədri Oqtay Əsədov, Baş Nazirin birinci müavini Yaqub Eyyubov, Heydər Əliyev Fondunun vitse-prezident Leyla Əliyeva, Gənclər və İdman naziri Azad Rəhimov, Milli Olimpiya Komitəsinin baş katibinin müavini Azər Əliyev və nümayəndə heyətinin digər üzvləri Minsk-2019 II Avropa Oyunlarında iştirak edən milli komandamızın üzvləri ilə görüşüblər.

Atletlər Kəndində keçirilən görüşdə nümayəndə heyətinin üzvləri idmançılarla söhbət edib, onlara II Avropa Oyunlarında uğurlar arzulayıblar.

Sonra Atletlər Kəndində yaradılan vəziyyətlə tanışlıq olub.

Atletlər Kəndinin meri, Belarus Təhsil nazirinin müavini Sergey Rudıy idmançıların yerləşdirilməsi, yaradılmış şərait barədə məlumat verib. O, Oyunların təşkilində azərbaycanlı mütəxəssislərin də xidmətindən istifadə olunduğunu vurğulayıb.

İkinci Avropa Oyunlarının işıqlandırılması üçün Belarus paytaxtına ezam olunan Azərbaycan jurnalistlərinə müsahibə verən Leyla Əliyeva idmançılarımızın Minsk-2019-da uğur qazanacaqlarına ümid etdiyini bildirib. İkinci Avropa Oyunlarının möhtəşəm açılış mərasimi ilə bağlı təəssüratlarını bölüşən Leyla Əliyeva deyib: "Açılış mərasimi əla keçdi. Mərasim təqribən üç saat davam etdi, lakin elə təəssürat yarandı ki, bu, sanki bir anda baş verdi. Belarusun bütün tarixini o qədər böyük sevgi ilə, elə gözəl təqdim etdilər ki, bu tamaşadan göz çəkmək mümkün deyildi. Əlbəttə, düşünürəm ki, bunları göröndən sonra hamı bu ölkəyə daha çox vuruldu".

Sonda xatirə şəkli çəkdirilib.



## MOK-un vitse-prezidenti Minsk-2019-da ilk medalları qazanan atletlərimizlə görüşüb



II Avropa Oyunlarında iştirak edən Azərbaycan atletləri Milli Olimpiya Komitəsinin rəhbərliyinin diqqət mərkəzindədir. Oyunlarda çıxış edən hər bir idmançıya xüsusi qayğı ilə yanaşılır, qarşıya çıxan problemlərin həlli üçün dərhal lazımi tədbirlər görülür.

Medal qazanan idmançılarla Atletlər Kəndində görüşlər keçirilir, digər idmançıların da uğur qazanmaları üçün onlara mənəvi dəstək verilir.

Xəbər verdiyimiz kimi, II Avropa Oyunlarında akrobatika gimnastikasında təmsilçilərimiz Ruhidil Qurbanlı və Abdulla Əl-Məşayxi cütlüyü qarışıq hərəkətlər üzrə qarışıq komandaların yarışında iki gümüş və bir bürünc medal qazanıblar. İyunun 23-də Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə yarışlarda fərqlənən idmançılarımız Ruhidil Qurbanlı və Abdulla Əl-Məşayxi ilə görüşmüşdür. MOK-un vitse-prezidenti II Avropa Oyunlarında milli komandamıza ilk medalları qazandıran atletlərimizi təbrik etmiş, onlara daha böyük uğurlar arzulamışdır.

## Üçüncü Avropa Oyunları Polşanın Krakov şəhərində keçiriləcək



İyunun 22-də Minskdə Avropa Olimpiya Komitələrinin fövqəladə Baş Assambleyası keçirilib. Azərbaycanı assambleyada Milli Olimpiya Komitəsinin vitse-prezidenti və Avropa Olimpiya Komitəsinin İcraiyyə Komitəsinin üzvü Çingiz Hüseynzadə təmsil edib.

İclasda müzakirə olunan əsas məsələ 3-cü Avropa Oyunlarına ev sahibliyi edəcək şəhərin seçimi olub. Baş Assambleya Polşanın Krakov şəhəri tərəfindən təqdim olunan ev sahibliyi ərizəsini müzakirə etdikdən sonra 3-cü Avropa Oyunlarının 2023-cü ildə Krakov şəhərində keçirilməsi qərarını təsdiqləyib.

### *II Avropa Oyunlarında medal qazanan ölkələr*

| *Ölkə* | *Qızıl* | *Gümüş* | *Bürünc* | *Cəmi* |
|---|---|---|---|---|
| *1. Rusiya* | *21* | *12* | *13* | *46* |
| *2. Belarus* | *11* | *9* | *15* | *35* |
| *3. Gürcüstan* | *6* | *4* | *9* | *19* |
| *4. Ukrayna* | *5* | *7* | *6* | *18* |
| *5. İtaliya* | *4* | *4* | *3* | *11* |
| *6. İsrail* | *3* | *3* | *0* | *6* |
| *7. Belçika* | *3* | *1* | *1* | *5* |
| *8. Fransa* | *3* | *0* | *5* | *8* |
| *9. Sloveniya* | *2* | *0* | *1* | *3* |
| *10. Hollandiya* | *1* | *5* | *2* | *8* |
| *11. Bolqarıstan* | *1* | *4* | *4* | *9* |
| *12. Çex Respublikası* | *1* | *2* | *3* | *6* |
| *13. Portuqaliya* | *1* | *2* | *3* | *6* |
| *14. Böyük Britaniya* | *1* | *2* | *2* | *5* |
| *15. İspaniya* | *1* | *1* | *4* | *6* |
| ***...24. Azərbaycan*** | ***0*** | ***4*** | ***7*** | ***11*** |





II AVROPA OYUNLARI

# II Avropa Oyunları davam edir

## *Atletlərimiz 4 gümüş, 7 bürünc medal qazanıblar*

*(əvvəli 1-ci səhifədə)*

Azərbaycan millisi paradda altıncı sırada arenaya daxil olub. Komandamızın bayraqdarı cüdoçu Rüstəm Orucov olub. Onu yığmamızın nümayəndə heyətinin rəhbəri Anar Bağırov, idmançılar və rəsmi şəxslər müşayiət ediblər.

Sonra açılış mərasiminin bədii hissəsi başlayıb. Belarusun tarixi şəxsiyyətlərini və tarixini əks etdirən kompozisiyalar izləyicilərin böyük marağına səbəb olub. Bu ölkənin müxtəlif dövrlərdə yaşamış tarixi şəxsiyyətlərinin tanıtım videoçarxı yayımlanıb.

Mərasimdə BMT-nin baş katibi Antonio Quterreşin videotəbriki səsləndirildikdən sonra Olimpiya çempionlarının iştirakı ilə Avropa Olimpiya Komitəsinin (AOK) bayrağı "Dinamo Arena"da qaldırılıb.

AOK-un prezidenti Yanes Kosyançiç çıxış edərək bildirib ki, bu irimiqyaslı idman yarışında 50 ölkənin atletləri iştirak edirlər. İlk Avropa Oyunlarının Azərbaycanda yüksək səviyyədə təşkil edildiyini xatırladan Y.Kosyançiç idmançılara uğurlar arzulayıb.

Konsert zamanı tanınmış musiqiçilər - Rusiyanın Xalq artisti Anna Netrebkonun (soprano) və Azərbaycanın Xalq artisti Yusif Eyvazovun (tenor) ifaları böyük maraqla qarşılanıb.

Daha sonra Belarus Prezidenti Aleksandr Lukaşenko çıxış edərək bu gün bütün avropalıların idman bayramı olduğunu söyləyib. Dövlət başçısı bildirib ki, tolerantlıq, qarşılıqlı hörmət şəraitində yaşamaq Belarusun obrazına çevrilib. Möhtəşəm idman bayramının baş tutmasında zəhməti olan hər kəsə təşəkkürünü bildirən Belarus Prezidenti II Avropa Oyunlarında iştirak edən atletlərə uğurlar arzulayıb.

Sonra Prezident Aleksandr Lukaşenko II Avropa Oyunlarını açıq elan edib.

Açılış mərasiminin sonunda Olimpiya məşəli yandırılıb və atəşfəşanlıq olub.

İkinci Avropa Oyunlarının açılışından bir gün əvvəl Minskdə Azərbaycan Günü adlı tədbir keçirilib. Tədbirdə Azərbaycan Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə, MOK-un baş katibi Ağacan Abıyev və federasiya rəsmiləri iştirak ediblər. İkinci Avropa Oyunlarında ölkəmizi təmsil edən nümayəndə heyətinin üzvlərinin də iştirak etdiyi mərasimdə Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə tədbir iştirakçılarını salamlayaraq, deyib: "Bu günlərdə biz böyük bir idman tədbirində iştirak etmək üçün Minskdə toplaşmışıq. Əziz minsklilər, ölkənizdə möhtəşəm idman bayramı keçirilir. Avropanın ən güclü idmançıları burada qalib adı uğrunda yarışacaqlar. Bilirsiniz ki, tarixdə ilk dəfə olaraq Avropa Oyunları Bakıda təşkil edilmişdi. Bizim ölkəmiz bu Oyunlara yüksək səviyyədə hazırlaşmışdı. Hesab edirik ki, 4 il əvvəl Avropa Oyunları öz möhtəşəmliyi ilə bütün dünyaya səs salmışdı. Bakıdan sonra estafet Minskə verildi. Biz inanırıq ki, Minsk də Bakı kimi bu sınaqdan uğurla çıxacaq". Çıxış başa çatdıqdan sonra bədii hissə olub. Qonaqlar Azərbaycan rəqslərinə tamaşa ediblər və hər iki Avropa Oyunlarının səfiri, Əməkdar artist Tünzalə Ağayevanın mahnılarını dinləyiblər.

Məlumat üçün bildirək ki, II Avropa Oyunlarının açılış mərasimindən bir gün əvvəl təşkil olunan tədbir yerli sakinlərin böyük marağına səbəb olub. Belə ki, xüsusi yaradılmış pavilyonda yerli sakinlərə və qonaqlara Azərbaycan haqqında məlumatlar verilib. Bununla yanaşı, onlara zəngin Azərbaycan mətbəxi ilə tanış olmaq imkanı verilib, şirniyyatlar təqdim olunub.

Belarusun paytaxtı Minskdə keçirilən II Avropa Oyunlarında köhnə qitənin 50 ölkəsindən 4 mindən çox idmançı qalib adı uğrunda yarışır. Atletlər idmanın 15 növü üzrə 200 dəst medal uğrunda mübarizə aparırlar. Azərbaycan Minsk-2019-da 82 idmançı ilə təmsil olunur. Atletlərimiz idmanın 11 növü üzrə medallar uğrunda yarışırlar. İdmançılarımız 4 gün ərzində gimnastika cüdo, sambo, boks, kamandan oxatma, badminton, velosiped idmanı və atıcılıq yarışlarında qüvvələrini sınayıblar. Atletlərimiz 4 gün ərzində 4 gümüş və 7 bürünc medala layiq görülüblər. Komandamız bu nəticə ilə medal qazanan ölkələr arasında 24-cü pillədə yer alıb.

### Gimnastika

Minsk-2019-da Azərbaycan milli komandasının aktivinə ilk medalı iyunun 22-də mübarizəyə başlayan akrobatika gimnastlarımız yazdırıblar. Dinamik hərəkətlər üzrə qarışıq cütlüklərin yarışında 28,830 xal toplayan Ruhidil Qurbanlı və Abdulla Əl-Məşayxi gümüş medala sahib olublar. Balans hərəkətləri üzrə qarışıq cütlüklərin yarışında isə Ruhidil Qurbanlı - Abdulla Əl-Məşayxi cütlüyü 28,160 xalla bürünc medala layiq görülüb.

Akrobatika gimnastlarımız ikinci Avropa Oyunlarının üçüncü günündə də fərqlənməyi bacarıblar. Belə ki, "Minsk arena"da keçirilən yarışda təmsilçilərimiz Ruhidil Qurbanlı və Abdulla Əl-Məşayxi cütlüyü qarışıq hərəkətlər üzrə qarışıq komandaların yarışında 29,540 xal toplayaraq oyunların gümüş medalına sahib olub.



Oyunların üçüncü günündə bədii gimnastika üzrə yarışlar keçirilib. İdmançılar qrup halında ayrı-ayrı növlər və çoxnövçülükdə mübarizə aparıblar.

Darya Sorokina, Zeynəb Hümmətova, Diana Əhmədbəyli, Ayşən Bayramova və Aliyə Paşayevadan ibarət Azərbaycanın qrup hərəkətləri üzrə komandası iki hərəkətin cəmində 44,975 xal toplayıb. Təmsilçilərimiz ümumi nəticədə 6-cı yeri tutublar.

Gimnastlarımız beş topla hərəkətdə 20,700 xal yığıblar Təmsilçilərimiz üç halqa və iki gürzlə isə 24,275 xala layiq görülüblər.

Yarışların dördüncü günündə batut gimnastikası üzrə yarışlara start verilib. Azərbaycan təmsilçiləri Ruslan Ağamirov və İlya Qrişunin kişilərin sinxron hərəkətlərində qüvvələrini sınayıblar.

Gimnastlarımız 47,900 xalla 5-ci yeri tutublar.

### Cüdo

İyunun 22-də Minskdə keçirilən ikinci Avropa Oyunları çərçivəsində cüdo yarışlarına start verilib. "Çijovka-Arena" kompleksində keçirilən yarışlarının ilk günündə 7 cüdoçumuz tatami üzərinə çıxıb. Qadınların yarışında Gültac Məmmədəliyeva (52 kq) ilk görüşdə - 1/32 finalda finlandiyalı Katri Kakkonu, 1/16 finalda belçikalı Çarlin Van Sniki məğlub etsə də, növbəti mərhələdə polşalı Aqata Perensə uduzub. Cüdoçumuz təsəlliverici görüşdə isə italiyalı Odette Qluffridaya məğlub olub. Cüdo yığmamızın digər altı üzvü Aişə Qurbanlı (48 kq), Larisa-Aleksandra Florian (52 kq), İçinxorloo Munxtsedev (57 kq), Orxan Səfərov, Kəramət Hüseynov (hər ikisi 60 kq) və Nicat Şıxəlizadə (66 kq) də yarışın birinci günündə uduzaraq mübarizəni dayandırıblar.



İyunun 23-də cüdo yarışlarının ikinci gününə start verilib. Cüdoçularımızdan Nuriyyə Axundova (63 kq), Rüstəm Orucov və Hidayət Heydərov (hər ikisi 73 kq) tatami üzərinə çıxıblar. Nuriyyə Axundova ilk görüşdə Dobre Stefaniya Adleniyaya uduzaraq, mübarizəni dayandırıb. Lakin kişi cüdoçularımız etimadları doğrulda biliblər. Azərbaycanın Minsk-2019-dakı bayraqdarı Rüstəm Orucov ilk görüşdə monakolu Sedrik Bessi ilə üz-üzə gəlib. Həmyerlimiz görüşün taleyini 57 saniyədə həll edib. 1/8 finalda italiyalı Olimpiya çempionu Fabio Bazile də idmançımızın fəndindən yaxa qurtara bilməyib. Cüdoçumuz 1/4 finalda ermənistanlı Ferdinand Karapetyanı mübarizədən kənarlaşdıraraq yarımfinala yüksəlib. Rio Olimpiadasının gümüş mükafatçısı bu mərhələdə yunanıstanlı Georgios Azoidisi məğlub edərək finala vəsiqə qazanıb. Lakin cüdoçumuz həlledici qarşılaşmada isveçli Tomi Masiasa uduzaraq II Avropa Oyunlarının gümüş medalına sahib çıxıb.

Bu çəki dərəcəsində yarışan Hidayət Heydərov ilk görüşdə macarıstanlı Miklos Ungvarini, növbəti mərhələdə isə israilli Din Gemeri məğlub edib. Lakin cüdoçumuz 1/4 finalda yunanıstanlı Georgios Azoidisə məğlub olub. Təsəlliverici görüşdə ermənistanlı Ferdinand Karapetyanı mübarizədən kənarlaşdıran Hidayət, üçüncü yer uğrunda görüşdə gürcüstanlı Laşa Şavdatuaşvilini məğlub edərək Minsk-2019-un bürünc medalına sahib çıxıb.

Yarışlarının dördüncü günündə 5 cüdoçumuz mübarizəyə qoşulub. Kişilərin mübarizəsində 90 kq çəki dərəcəsində yarışan Məmmədəli Mehdiyev belaruslu Yahor Varapayev və fransalı Aurelien Disseni məğlub etsə də, 1/4 finalda türkiyəli Mikail Özerlərə məğlub olub. Cüdoçumuz bürünc medal uğrunda təsəlliverici görüşdə Ciril Qrossklausu məğlub edib. Həlledici qarşılaşmada hollandiyalı Vant End Noeli də üstələyən Məmmədəli Mehdiyev Minsk-2019-un bürünc medalına sahib çıxıb.

100 kq çəki dərəcəsində çıxış edən Elmar Qasımov 1/16 finalda ukraynalı Anton Savitskini, 1/8 finalda isə estoniyalı Qriqori Minaşkini ipponla məğlub edib. Lakin Rio Olimpiadasının gümüş mükafatçısı növbəti görüşdə fransalı Siril Maretə məğlub olub. Bürünc medal uğrunda təsəlliverici görüşə çıxan cüdoçumuz bu mərhələdə monteneqrolu Danilo Panticə qalib gəlib. Üçüncü yer uğrunda həlledici görüşdə xorvatiyalı Zlatko Kumrikə də qalib gələn Elmar Qasımov II Avropa Oyunlarının bürünc medalına sahib çıxıb.

Bu çəki dərəcəsində mübarizə aparan Zelim Kotsoyev 1/16 finalda serbiyalı Boyan Dosen üzərində ipponla qələbə qazansa da, 1/8 finalda Belçika təmsilçisi Toma Nikiforova uduzaraq mübarizəni dayandırıb.

+100 kq çəki dərəcəsində ölkəmizi təmsil edən Uşangi Kokauri 1/8 finalda sloveniyalı Vito Draqiçi, növbəti mərhələdə isə hollandiyalı Roy Meyeri məğlub edərək yarımfinala yüksəlib. Təəssüf ki, cüdoçumuz finalın bir addımlığında rusiyalı İnal Tasoyevə məğlub olub. Uşangi Kokauri bürünc medal uğrunda həlledici görüşdə avstriyalı Stepan Heigiyə uduzaraq Minsk-2019-u medalsız başa vurub.



Qadın cüdoçuların yarışında ölkəmizi təmsil edən İrina Kindzerskaya (78 kq) 1/8 finalda almaniyalı Yasmin Kuelbsi, növbəti mərhələdə isə böyük britaniyalı Sarah Aldinqtona qalib gəlib. Təəssüf ki, xanım cüdoçumuz belaruslu Marina Slutskaya ilə yarımfinal görüşündə sona 13 saniyə qalmış məğlub olub. Təmsilçimiz bürünc medal uğrunda həlledici qarşılaşmada rusiyalı Qalina Tarasovaya qalib gələrək ikinci Avropa Oyunlarının bürünc medalına yiyələnib.

Beləliklə, Azərbaycan cüdoçuları ikinci Avropa Oyunlarını 1 gümüş və 4 bürünc medalla başa vurublar.

### Boks

İkinci Avropa Oyunlarının boks yarışlarına iyunun 21-də start verilib. "Uruçye Arena"da keçirilən yarışda 11 (10 kişi, 1 qadın) boksçumuz mübarizə aparır. Kişi boksçular arasında mübarizəyə, əvvəlcə, Tayfur Əliyev (56 kq) başlayıb. Təmsilçimiz 1/16 finalda bolqarıstanlı Boyan Asenova 3:2 hesabı ilə qalib gəlsə də növbəti görüşdə ukraynalı Nikola Butsenkoya uduzaraq mübarizəni dayandırıb.

69 kq çəki dərəcəsində mübarizə aparan Lorenzo Sotomayor (69 kq) isə 1/16 finalda ermənistanlı Qurqen Madoyan üzərində inamlı qələbə qazanıb (5:0). Boksçumuz 1/8 finalda isə Bosniya və Herseqovina idmançısı Adem Fetahoviçə qalib gələrək növbəti mərhələyə yüksəlib.



75 kq çəki dərəcəsində çıxış edən Kamran Şahsuvarlı (75 kq) da Oyunlara qələbə ilə başlayıb. Rio Olimpiadasının bürünc mükafatçısı 1/16 finalda gürcüstanlı Giorgi Harabadzeni 4:1 hesabı ilə məğlub edərək 1/8 finala vəsiqə qazanıb. Təəssüf ki, boksçumuz bu mərhələdə irlandiyalı Maykl Nevinə uduzaraq Oyunlarla vidalaşıb.

Mübarizəyə 1/16 finaldan qoşulan Cavid Çələbiyev (60 kq) də ilk görüşünü qələbə ilə başa vurub. Təmsilçimiz ukraynalı Nikola İvkoviç üzərində 5:0 hesablı təmiz qələbə qazanaraq 1/8 finala vəsiqəni təmin edib.

Legioner boksçumuz Loren Alfonso Domingez (81 kq) 1/16 finalda ukraynalı Stepan Hrekulla qarşılaşıb. Boksçumuz rəqibinə 3:0 hesabı ilə qalib gələrək növbəti mərhələyə vəsiqə qazanıb.

Oyunların üçüncü günündə yarışan Rüfət Hüseynov da mübarizəyə qələbə ilə başlayıb. 49 kq çəki dərəcəsində çıxış edən boksçumuz ilk görüşdə İsraili təmsil edən erməni əsilli David Alaverdyanla qarşılaşıb. Rəqibinə heç bir şans verməyən idmançımız 4:0 hesablı qələbə qazanıb. Boksçumuz bu qələbə ilə 1/4 finala vəsiqə qazanıb.

Digər boksçularımız Rahil Məmmədli (91 kq), Məhəmməd Abdullayev (+91 kq), Bəxtiyar Qazıbəyov (64 kq), Məsud Yusifzadə (52 kq) və Məryəm Cəbrayılova (69 kq) ilk görüşdə məğlub olaraq mübarizəni erkən dayandırıblar.

*(ardı 3-cü səhifədə)*

# II AVROPA OYUNLARI






# II Avropa Oyunları davam edir

### *Atletlərimiz 4 gümüş, 7 bürünc medal qazanıblar*

*(əvvəli 2-ci səhifədə)*

## Sambo

II Avropa Oyunları çərçivəsində keçirilən sambo yarışlarına iyunun 22-də start verilib. Ölkəmizi bu idman növü üzrə yarışlarda 7 (6 oğlan, 1 qız) idmançı təmsil edib. Sambo yarışlarının birinci günündə Azərbaycanın dörd idmançısı mübarizəyə qoşulub. Təmsilçilərimiz ilk gündə iki bürünc medala layiq görülüblər. Bürünc medalları komandamızın aktivinə Mehman Xəlilov (57 kq) və Emil Həsənov (68 kq) yazdırıblar. Mehman Xəlilov 1/4 finalda belaruslu Vladislav Burdza uduzub. Lakin bu çəki dərəcəsində yeddi samboçunun mübarizə aparması idmançımıza təsəlliverici qarşılaşmaya qatılmadan bürünc medal uğrunda görüşdə iştirak etmək imkanı yaradıb. M.Xəlilov Ermənistan samboçusu Maksim Manukyanı 9:1 hesabı ilə məğlub edərək üçüncü yerə sahib çıxıb.

1/4 finalda rumıniyalı Laslo Jolt-Sokeni üstələyən Emil Həsənov isə yarımfinalda gürcüstanlı Mindia Liluaşviliyə məğlub olub. E.Həsənov bürünc medal uğrunda qarşılaşmada Bolqarıstan təmsilçisi Martin İvanova qalib gəlib. Digər samboçularımızdan Ceyhun Hüseynov (82 kq) və Gözəl Zutova (72 kq) isə 1/4 finalda uduzublar.

İkinci Avropa Oyunlarının sambo yarışlarına iyunun 23-də yekun vurulub. "İdman sarayı"nda keçirilən sambo yarışlarının sonuncu günündə Azərbaycanın üç idmançısı mübarizəyə qoşulub. Təmsilçilərimizdən yalnız Ağasif Səmədov (52 kq) gümüş medala layiq görülüb. 1/4 finalda litvalı Gintaras Katkusa 5:0 hesabı ilə qalib gələn samboçumuz yarımfinalda belaruslu Maksim Krasinskini üstələyərək finala yüksəlib. Lakin idmançımız həlledici qarşılaşmada ermənistanlı idmançı Tiqran Kirakosyana məğlub olaraq gümüş medala layiq görülüb. Komandamızın digər üzvləri Cavidan Qarayev (62 kq) və Abdulla Abdullayev (74 kq) isə ilk görüşdə məğlub olublar.

Beləliklə, Azərbaycan samboçuları Minsk-2019-u 1 gümüş və 2 bürünc medalla başa vurublar.

## Atıcılıq

İyunun 22-də Minsk-2019 çərçivəsində keçirilən atıcılıq yarışlarına da start verilib. 10 metr məsafəyə tapançadan atəşaçma üzrə qarışıq komanda yarışının təsnifat mərhələsində Nigar Nəsirova - Ruslan Lunyov dueti 566 xalla 19-cu olub. Kişilər arasında stend atıcılığı yarışında isə Əli Hüseynli 68 xalla 20-ci pillədə qərarlaşıb. Bu nəticə təmsilçilərimizin final mərhələsinə adlamalarına kifayət etməyib.

İyunun 23-də 10 m məsafədən pnevmatik tapança ilə atəş açan kişilərin mübarizəsində təsnifat mərhələsinə yekun vurulub. Azərbaycan təmsilçisi Ruslan Lunyov yarışda uğursuz çıxış edib. 574 xal toplayan idmançımız 20-ci yeri tutub. O,



ilk 8 yerə yüksələ bilmədiyindən bu növdə mübarizəni dayandırıb.

II Avropa Oyunlarında çıxış edən atıcımız Nigar Nəsirova üçün də yarışın üçüncü günü uğursuz olub. İdmançımız pnevmatik tapança ilə 10 metrdən atəş açmaqda mübarizə aparıb. Təsnifat mərhələsində 295 xal yığan N.Nəsirova yarışda 13-cü yeri tutub. Bu nəticə ona finala yüksələn 8 idmançı arasına düşməyə imkan verməyib.

## Kamandan oxatma

İyunun 21-də Minsk-2019 çərçivəsində kamandan oxatma yarışlarına da start verilib. Bu idman növü üzrə ölkəmizin yeganə təmsilçisi olan Ozay Qasımova da yarışların ilk günündə mübarizəyə qoşulub. Təmsilçimiz klassik kamandan oxatma üzrə reytinq yarışında 586 xal toplayıb. İdmançımız bu nəticə ilə 1/32 finala vəsiqə qazanıb. Ozay Qasımova iyunun 25-də otuzikidəbir finalda Almaniya təmsilçisi Elena Rixter ilə qarşılaşacaq.

## Velosiped

Belarusun paytaxtı Minskdə keçirilən II Avropa Oyunlarının üçüncü günündə Azərbaycan velosipedçiləri də mübarizəyə qoşulublar. Qrup halında şosse yürüşündə 4 idmançımız start xəttinə çıxıb. Ən yaxşı nəticə göstərən Samir Cəbrayılov 63-cü olub. O, liderdən 54 saniyə geri qalıb. 104-cü olan Elçin Əsədov isə finişə qalibdən 11 dəqiqə 23 saniyə sonra çatıb. Digər iki velosipedçimiz - Musa Mikayılzadə və Mikayıl Səfərli isə finiş xəttinə çatmayıblar.

## Badminton

İyunun 24-də II Avropa Oyunları çərçivəsində keçirilən badminton yarışları start



götürüb. Əvvəlcə, kişilərin fərdi mübarizəsində qrup mərhələsinin oyunları təşkil olunub. Azərbaycanı təmsil edən Ezmi Qovimuramadhoni G qrupunda ilk matçına çıxıb. O, Rumıniya idmançısı Kollins Valentin Filimonla üz-üzə gəlib.

İlk setdə qalib gələn idmançımız ikinci hissədə məğlub olub. Qarşılaşmanın taleyi 3-cü setdə həll olunub. 3-cü setdə qalib gələn idmançımız yekunda matçdan qələbə ilə ayrılıb - 2:1 (21:19, 18:21, 21:10).

Qeyd edək ki, badmintonçumuz iyunun 25-də lüksemburqlu Robert Mann, 26-da qrupun reytinq favoriti Rusiya idmançısı Vladimir Malkovla görüşəcək. Turnirin reqlamentinə əsasən, qrup mərhələsində ilk 2 yeri tutan badmintonçu 1/8 final mərhələsinə vəsiqə qazanacaq.

# *Minsk-2019: fikirlər, rəylər*

***İkinci Avropa Oyunlarında medal qazanan Azərbaycan idmançıları, məşqçilər və rəsmi nümayəndələr "Olimpiya dünyası" qəzetinin Minskə ezam olunmuş əməkdaşına Oyunlarla bağlı fikirlərini bildiriblər.***



***Ağacan Abıyev (Milli Olimpiya Komitəsinin baş katibi):***

- Tarixdə ilk dəfə olaraq birinci Avropa Oyunlarına ev sahibliyi edən Azərbaycan böyük idman ölkəsi olduğunu bütün dünyaya bir daha sübut etdi. Komandamız bu Oyunlarda 56 medal qazanaraq ümumi medal sıralamasında ikinci yeri tutdu. Bu gün isə bu böyük idman tədbirinə Belarusun paytaxtı Minsk şəhəri ev sahibliyi edir. Minskdə ikinci Avropa Oyunları çərçivəsində Azərbaycan Günü adlı tədbir keçirildi. Tədbir yerli sakinlərin və qonaqların böyük marağına səbəb oldu. Burada qonaqlara ölkəmiz haqqında ətraflı məlumatlar verildi. Tədbir iştirakçıları, həmçinin Azərbaycan mədəniyyəti haqqında məlumatlandırılıb, onlara ölkəmizin zəngin mətbəxi ilə tanış olmaq imkanı yaradılıb. İnanıram ki, Minsk-2019 ikinci Avropa Oyunları öz möhtəşəmliyi ilə hər kəsi heyran qoyacaq. Necə ki, 4 il əvvəl Bakı bunu bacarmışdı. Bakıda olduğu kimi, Minskdə də Avropanın ən güclü idmançıları əsas mükafatlar uğrunda mübarizə aparacaqlar. Bu baxımdan atletlərimiz, həqiqətən də, çətin sınaq gözləyir. Oyunlarda iştirak edən bütün idmançılarımıza parlaq qələbələr arzulayıram.

***Raqif Abbasov (Bakı şəhər Gənclər və İdman Baş idarəsinin rəisi):***



- Belarusun paytaxtı Minskdə təşkil olunan ikinci Avropa Oyunları çərçivəsində Azərbaycan Günü adlı tədbir keçirildi. Tədbir qonaqlar tərəfindən böyük marağa səbəb oldu. Tədbirdə iştirak edən Avropa dövlətləri və onların nümayəndələri Azərbaycan Günündə ölkəmizi bir qədər də yaxından tanıdılar. Belə tədbirlər Azərbaycan idmanının, mədəniyyətinin təbliğatı üçün vacibdir. Bunun üçün də Azərbaycan günü tədbirinin təşkili mühüm önəm daşıyır. Düşünürəm ki, Belarusun Azərbaycandan sonra ikinci Avropa Oyunlarına ev sahibliyi etməsi zəruridir. Oyunlarda iştirak edən komandamıza uğurlar arzulayıram. İnanıram ki, komandamız ikinci Avropa Oyunlarından Vətənə uğurlu nəticələrlə qayıdacaq.

***Mehman Xəlilov (İkinci Avropa Oyunlarının sambo yarışlarının bürünc mükafatçısı):***



- Sambo yarışlarında komandamıza ilk medalı qazandırdığım üçün çox sevinirəm. Mənim üçün ən sevindirici məqam isə ermənistanlı idmançı üzərində qalib gələrək mükafat qazanmağım oldu. Bu qələbə mənim yaddaşımda gözəl xatirə olaraq qalacaq. Ermənistanlı idmançı ilə görüşə çox yaxşı hazırlaşmışdım. Çalışırdım ki, özümü tam olaraq qələbəyə kökləyim. Zalda da bizi çox yaxşı dəstəklədilər. Məşqçilərim kənardan mənə deyirdilər ki, çalış vaxtından əvvəl məsələni həll edərək qələbə qazan. Mən də bütün gücümü ortaya qoyub, məşqçilərimin dediyi tapşırıqlara əməl edə bildim. Mənim üçün bundan gözəl qələbə ola bilməzdi. Bu günkü qələbəmdə əziyyəti olan hər kəsə minnətdarlığımı bildiririəm. Mən, həmçinin uğurumla ailəmə də böyük sevinc bəxş etdim. Bilirəm ki, valideynlərim görüşümü böyük həyəcanla gözləyirdilər. Onların üzərimdə böyük əziyyəti olub. Bu gün valideynlərimi sevindirdiyim üçün özümü çox xoşbəxt hiss edirəm.

***Bəxtiyar Hacıyev: (sambo üzrə milli komandanın baş məşqçisi):***

- Samboçularımızın ikinci Avropa Oyunlarında 1 gümüş və 2 bürünc medal qazanması bizi çox sevindirir. Düzdür, mən hər üç samboçumuzu qızıl medalçı kimi görmək istəyirdim. Lakin belə bir böyük idman yarışında mükafatçılar sırasında yer almağın özü də qələbə deməkdir.



Hər üç idmançımız böyük əzmkarlıq göstərdi. Əsas da Mehman Xəlilov. Mehman həlledici görüşdə ermənistanlı idmançı üzərində qalib gələrək bürünc medala sahib çıxdı. Zala toplaşan azərbaycanlı azarkeşlər hər bir idmançımıza böyük dəstək verirdilər. Bu dəstək əsasən, Mehman Xəlilovda çox böyük ruh yüksəkliyi yaratdı. Mehmana ermənistanlı idmançı üzərində qələbədə fiziki hazırlığı ilə yanaşı, dəstək və məsuliyyət çox kömək oldu. Bizi dəstəkləyən hər kəsə minnətdarlığımı bildirirəm.



***Hidayət Heydərov: (İkinci Avropa Oyunlarının cüdo yarışlarının bürünc mükafatçısı):***

- İkinci Avropa Oyunlarında əsas məqsədim yalnız qələbə qazanmaq idi. Lakin bu alınmadı. Buna baxmayaraq bürünc medal da pis nəticə deyil. Əsas odur ki, mükafatçılar sırasında yer ala bildim. Komandamızın aktivinə bürünc medal əlavə etdiyim üçün sevinirəm. Qələbə üçün bütün gücümü səfərbər etdim. Görüşlərimdə fərqli rəqiblərlə üz-üzə gəldim. Lakin ən maraqlı görüşlərim ermənistanlı idmançı və Olimpiya çempionu ilə keçirdiyim qarşılaşmalar oldu. Etiraf edim ki, bürünc medal uğrunda görüşdə belə asanlıqla qalib gələcəyimi gözləmirdim. Çünki rəqibim tanınmış cüdoçu, Olimpiya çempionu idi. Buna baxmayaraq görüşə çıxan kimi təmiz qələbə qazandım. Minsk-2019-da cüdo idman növündə ilk medalı əldə etdiyimə görə çox sevinirəm.

***Məmmədəli Mehdiyev: (İkinci Avropa Oyunlarının cüdo yarışlarının bürünc mükafatçısı):***

- Bir yarışda həm Avropa çempionatının, həm də ikinci Avropa Oyunlarının medalını qazanmaq çox xoşdur. Əlbəttə, bu mükafat da mənim



üçün böyük sevincdir. Çox istəyərdim ki, finala vəsiqə qazanım. Lakin alınmadı. Rəqibim güclü idi, təslim olmaq istəmirdi. Hətta məni təhrik edirdi ki, cərimə xalı alım. Buna baxmayaraq, Elxan müəllimin köməkliyi ilə üçüncü ola bildim. Çalışacağam ki, qarşıda bizi gözləyən dünya çempionatında və III Avropa oyunlarında daha yaxşı nəticə qazanım. Düşünürəm ki, hazırlığım tam qaydasında idi, sadəcə həyəcan mənə mane oldu.

***Nəriman Abdullayev (boks üzrə yığma komandanın böyük məşqçisi):***



- Boksçularımız ikinci Avropa Oyunlarında 11 idmançı ilə təmsil olunur. Komandamızın heyətində 10 kişi və 1 qadın boksçumuz yer alıb. Digər idman növlərində olduğu kimi boksçularımız da bu mötəbər idman yarışına yüksək səviyyədə hazırlaşıblar. Komandamızın heyəti çox güclü idmançılardan ibarətdir. Boksçularımız Olimpiya Oyunları, I Avropa Oyunları və IV İslam Həmrəyliyi Oyunları kimi mötəbər yarışlarda medallar qazanmağa müvəffəq olublar. Bakıda təşkil olunan birinci Avropa Oyunlarında komandamız 6 qızıl, 1 gümüş və 4 bürünc medala sahib çıxmışdılar. Onlar bu yarışda da yüksək nəticələr uğrunda yarışırlar. İnanıram ki, Minsk-2019 boksçularımız üçün yaddaqalan olacaq. Çalışacağıq ki, bu yarışda da etimadları doğruldaraq, Vətənə medallarla qayıdaq.

## Paralimpiya



*İlqar RƏHİMOV, Milli Paralimpiya Komitəsinin prezidenti*

Xalqlar hər zaman dahi şəxsiyyətləri ilə tanınır. Sübuta ehtiyacı olmayan başqa bir fikir də söylənilir: böyük şəxsiyyətlər bütün dünyaya məxsusdur.

Dünya miqyaslı siyasətçi, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tək ölkəmizdə deyil, dünya miqyasında sözünün keçəri olan şəxsiyyət idi. O, bəşəri düşüncə sahibi olduğundan qlobal təhlillər aparmağı bacarırdı. Bu dahi insan xalqımızın yaddaşında qurucu və xilaskar dövlət xadimi kimi qalıb. Bu da həqiqətdir ki, Heydər Əliyev fenomeni ilə bağlı söz demək, onun titanik fəaliyyətinin möhtəşəmliyi haqqında fikir söyləmək o qədər də asan deyil. Ulu öndər Azərbaycanı böyük çətinliklərdən çıxartdı, bəlalardan qorudu, onu təzədən qurdu, dirçəltdi, dünyanın nümunə gətirilən ölkələri sırasına yüksəltdi. Bu gün dünya Azərbaycanı ümummilli liderimizin timsalında tanıyır, böyük azərbaycanlını minnətdarlıqla xatırlayırsa, bu özü bizim üçün fəxr, fəxarətdir. Biz qürur duyuruq ki, xalqımızın dünyada bunun səviyyədə sevilən, tanınan ümummilli lideri olub.

1993-cü ildən başlayaraq Azərbaycanda sosial müdafiə tədbirləri son dərəcə səmərəli və çevik xarakter alaraq, pensiya təminatı, əlillərin reabilitasiyası, qeyri-məşğul əhalinin məşğulluğunun təminatı və s. istiqamətlərdə ardıcıl, məqsədyönlü tədbirlər həyata keçirilib. Əlillərin, xüsusən Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə fiziki sağlamlıqlarını itirmiş vətəndaşların və şəhid ailələrinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, onlar üçün yeni mənzillərin tikilib istifadəyə verilməsi işlərinə məhz böyük öndərimizin ölkəyə yenidən rəhbərliyə qayıdışından sonra başlanıb, ötən illərdə bu təbəqədən olan xeyli sayda insan dövlət hesabına yeni mənzillərlə, minik avtomobilləri ilə, reabilitasiya vasitələri ilə təmin edilib, sosial cəhətdən həssas əhali qruplarının rifahı xeyli yaxşılaşıbdır.

Azərbaycan xalqının tarixində və taleyüklü məsələlərin həllində müstəsna xidmətləri olan Heydər Əliyevin çoxsaylı fəaliyyətində idman sahəsində gördüyü işlər də bu ölkənin vətəndaşlarını qürurlandırır. Ulu Öndər idman sahəsinin inkişafına böyük diqqət və qayğı göstərirdi. O deyirdi: “İdman hər bir ölkənin inkişafı üçün çox vacib olan sahədir. Bu elə bir sahədir ki, idmançılarımız müxtəlif ölkələrdə yarışlarda iştirak edir, qələbələr qazanırlar və hər dəfə müstəqil Azərbaycanın adını ucaldırlar. Müstəqil Azərbaycanın himni çalınır, bayrağı qaldırılır və Vətənimiz dünyanın müxtəlif ölkələrində tanınır. Demək olar ki, idman kimi Azərbaycanın müstəqilliyinin rəmzlərini nümayiş etdirən ikinci bir vasitə yoxdur”.

# “İdman hər bir ölkənin inkişafı üçün çox vacib olan sahədir”



### Atlantadan başlayan zəfər yolu

Bu gün Azərbaycanda idman uğurla inkişaf edir, Azərbaycan dünyada idman ölkəsi kimi tanınır və idmançılarımızın qələbələri xalqımızı ürəkdən sevindirir. Əminliklə deyə bilərik ki, Azərbaycanın idman şöhrəti yüksək səviyyədədir. Təsadüfi deyil ki, son illər ərzində ölkəmizdə müxtəlif mötəbər beynəlxalq idman yarışları keçirilir, Vətənimiz dünya və Avropa çempionatlarına ev sahibliyi edir. İdman sahəsində ən böyük nailiyyətlərimizdən biri də ölkəmizin Olimpiya və Paralimpiya oyunlarında iştirakıdır. Olimpiya və Paralimpiya oyunları dünyanın nəinki ən mötəbər idman yarışıdır, hətta bəlkə, də, dünyanın diqqətini cəlb edən birinci dərəcəli tədbirdir. Azərbaycan paralimpiyaçıları bu yarışlarda ilk dəfə ümummilli lider Heydər Əliyevin xeyir-duası ilə 1996-cı ildə Atlanta Paralimpiya Oyunlarına, ulu öndərimizin dəyərli tövsiyələri həmişə idmançılarımızın qələbə əzmini yüksəltmiş, onlarda nikbin əhval-ruhiyyə yaratmış və nəticədə Paralimpiya Oyunlarında qələbələrimizin əsası qoyulmuşdur. Növbəti dəfə komandamız 2000-ci ildə Sidney Paralimpiya oyunlarında 3 növdə 7 idmançı ilə təmsil olunaraq, bir qızıl və bir gümüş medal qazanmışdır. Ümummilli lider 2000-ci






ilin 15 noyabrında XI Sidney Yay Paralimpiya Oyunlarından uğurlu nəticələrlə qayıtmış paralimpiyaçılarımızla görüşdə deyirdi: “Fiziki imkanları məhdud insanların idmanla məşğul olması və idman yarışlarında belə yüksək nailiyyətlər əldə etməsi çox təqdirəlayiq haldır. Bu, bir tərəfdən sizin nə qədər iradəli olduğunuzu, digər tərəfdən fiziki məhdudiyyətinizə baxmayaraq həm öz səhhətinizi daha da möhkəmləndirmək, həm də cəmiyyətdə öz fəaliyyətinizi göstərmək üçün nə qədər əzmkar olduğunuzu göstərir. Hesab edirəm ki, biz sizin bu fəaliyyətinizi yüksək qiymətləndirməliyik. Təəccüblənmək olar ki, insan biraz xəstə, yaxud bir az çatışmazlığı olanda onda bədbinlik əmələ gəlir, özünü ələ ala bilmir. Amma siz müəyyən fiziki məhdudiyyətinizi öz əzmkarlığınızla, iradənizlə və bacarığınızla aradan qaldırmısınız. Siz və sizin kimi insanlar cəmiyyətimizdə böyük hörmətə layiqdirlər. Ölkəmizin olimpiyaçılarının, o cümlədən paralimpiyaçılarımızın keçdiyi bu imtahan onu göstərir ki, Azərbaycan gəncləri, idmançıları böyük potensiala malikdir.”

Ölkədə idmanın inkişafı, həmçinin paralimpiyaçıların öz potensiallarını ortaya qoyması üçün bu yöndə qəbul olunan Dövlət proqramı, verilən sərəncamlar ümummilli liderin qayğısının daha bir bariz nümunəsidir. Ulu öndərin imzaladığı sərəncam” Əlilliyin qarşısının alınması və əlillərin reabilitasiyası üzrə 1999-2002 -ci illər üçün xüsusi Dövlət Proqramı”, fiziki cəhətdən məhdudiyyətli insanların cəmiyyətə inteqrasiyasında müstəsna rol oynadı. O da qeyd edilməlidir ki, paralimpiyaçıların nüfuzlu idman yarışlarına və olimpiadalara hazırlaşması üçün idman qurğularının inşası Heydər Əliyev tərəfindən prioritet məsələ kimi qoyuldu.

### Paralimpiyaçılar, sözün əsl mənasında, fədakar insanlardırlar

İlk uğurlarını qazanmış paralimpiyaçılarımızla görüşdə ulu öndər əlil idmançılar üçün xüsusi kompleksin tikintisi barədə göstəriş vermişdi. Səkkiz ildən sonra, yəni 2008-ci ilin avqustun 28-də Sumqayıtda inşa edilmiş Paralimpiya İdman Kompleksinin açılış mərasimi keçirildi. Xüsusi qeyd etmək lazımdır ki, MDB məkanında ilk dəfə olaraq, paralimpiyaçılar üçün xüsusi və çox yüksək səviyyədə, yüksək dünya standartlarına uyğun şəkildə idman mərkəzi tikilib istifadəyə verildi. Tədbirdə möhtərəm prezidentimiz, paralimpiyaçıların dostu İlham Əliyev və I vitse-prezident, Azərbaycanın birinci xanımı Mehriban Əliyeva iştirak etmişdir. Dövlətimizin başçısı öz çıxışında deyirdi: “Paralimpiyaçıların idmana olan sədaqəti və xüsusilə Azərbaycan paralimpiyaçılarının uğurları və beynəlxalq yarışlarda iştirakı böyük qəhrəmanlıqdır. Azərbaycan dövləti sizin bu səylərinizi çox yüksək qiymətləndirir və qiymətləndirməlidir. Məhz buna görə maksimum dərəcədə çalışırıq ki, sizin üçün lazımi şəraiti yaradaq. O cümlədən belə gözəl idman mərkəzinin tikintisi bunu bir daha sübut edir. Mən çox şadam ki, Azərbaycanda Paralimpiya Komitəsi fəaliyyətini genişləndirir və ümumiyyətlə, Paralimpiya oyunlarında iştirak edən idmançıların sayı artır. Bizim Paralimpiya oyunlarında nəticələrimiz də hər dəfə daha da böyük olur. Azərbaycan dövləti paralimpiyaçıların mükafatlandırılması üçün lazımi tədbirlər görür və görəcəkdir. Bir də demək istəyirəm ki, paralimpiyaçılar, sözün əsl mənasında, fədakar insanlardır. Onlar zədələrdən, yaralardan, bəzən sağalmayan yaralardan əziyyət çəkirlər. Ancaq buna baxmayaraq, öz fədakarlığını göstərərək, idmanla məşğul olur, Azərbaycanı təbliğ edirlər. Beynəlxalq yarışlarda Azərbaycanın bayrağını qaldırırlar və Azərbaycan xalqı bunu çox yüksək qiymətləndirir. Azərbaycan dövləti də çalışır ki, əlindən gələni etsin ki, sizin şəraitiniz, həyatınız daha da yaxşı olsun”.










Paralimpiyaçılarımız daim öz üzərlərində ölkə başçısının qayğıkeş münasibətini hiss ediblər. Müntəzəm olaraq, Prezidentin sərəncamları ilə qələbə qazanmış paralimpiyaçılarımız, məşqçilərimiz yüksək orden və medallarla təltif olunurlar. Paralimpiyaçımızın maddi rifahı yaxşılaşdırılır, idmançılarımız mənzil və minik avtomobilləri ilə təmin olunurlar. Ümumilikdə ölkə vətəndaşlarının sosial vəziyyətinin yaxşılaşdırılması, həmişə dövlət başçısının prioritet məsələlərindən biri olmuşdur.

Biz idman ictimaiyyətinin bəxti onda gətirib ki, ölkə başçısı cənab İlham Əliyev eyni zamanda Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin Prezidentidir.

Paralimpiyaçılarımızın sosial rifahının yaxşılaşdırılması öz bəhrəsini verməkdədir. Belə ki, fəaliyyəti dövründə Paralimpiya milli komandası 6 Yay Paralimpiya Oyunlarında iştirak edib və idmançılarımız 38 medal qazanıblar. İdmançılarımızdan 7 nəfəri Paralimpiya çempionudur ki, onlardan 2 nəfəri ikiqat Paralimpiya çempionudur. Bundan əlavə idmançılarımızdan 7 nəfəri dünya çempionu, 17 nəfəri Avropa çempionu, 7 nəfəri Dünya Oyunlarının qalibi, 1 nəfəri Avropa Oyunlarının qalibi, 12 nəfəri isə İslam Həmrəyliyi Oyunlarının qalibidir.

Hazırda Komitənin nəzdində 14 yay idman növü, 2 qış idman növü vardır ki, bu idman növlərinə minlərlə idmançı cəlb olunmuşdur.

### İdmançılarımızın əsas təkanverici stimulu Vətən sevgisidir

2013-cü ildə Beynəlxalq təcrübədə ilk dəfə olaraq Milli Paralimpiya Komitəsinin nəzdində Uşaq Paralimpiya Komitəsi (UPK) yaradılmışdır və UPK Paralimpiya Komitəsi tərəfindən idarə olunur. Komitənin yaradılmasında əsas məqsəd, sağlamlıq imkanları məhdud uşaqların idmana cəlb olunması yolu ilə ehtiyat idmançıların hazırlanması və onların abilitasiya və reabilitasiya yolu ilə cəmiyyətə inteqrasiya olunmalarına dəstək verməkdir. 2015-ci ildən başlayaraq hər il respublika üzrə Uşaq Paralimpiya İdman Oyunları keçirilir.

Prezident İlham Əliyev çıxışlarının birində demişdir: “İdmançılarımızın əsas təkanverici stimulu Vətən sevgisidir. Bütün başqa amillərlə yanaşı, birinci sırada dayanan Vətənə, xalqa olan bağlılıqdır. Azərbaycan idmançıları istər Olimpiya oyunlarında, istərsə də Avropa, dünya çempionatlarında medallar qazananda, Azərbaycanın milli himni səslənəndə hər bir vətənpərvər Azərbaycan vətəndaşı sevinir. Hər bir insanın, hər bir vətənpərvər vətəndaşın ürəyi fərəhlə dolur. Bu unudulmaz anları bizə idmançılar bəxş edirlər”.

Ümummillli lider haqqında danışarkən onun adını daşıyan “Heydər Əliyev Fondu”nun fəaliyyəti də diqqət çəkir. Azərbaycanın I vitse-prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə yaradılan və onun rəhbərliyi ilə son illər həyata keçirilən irimiqyaslı humanitar layihələr, o cümlədən fiziki məhdudiyyətli insanlara, valideyn himayəsindən məhrum olmuş, müxtəlif xəstəliklərdən əziyyət çəkən, həmçinin sağlamlıq imkanları məhdud uşaqlara göstərilən qayğı təbii ki, paralimpiyaçılarımızdan da yan keçməyib. Məlumat üçün qeyd edilməlidir ki, “Heydər Əliyev Fondu” tərəfindən ikiqat paralimpiya çempionu İlham Zəkiyev “Qızıl çinar” mükafatına, qalib paralimpiyaçılarımız isə fondun fərdi təqaüdünə layiq görülüblər. Yuxarıda qeyd olunan bütün bu uğurlara görə paralimpiyaçılarımız ölkə idmanının əvəzolunmaz dostuna minnətdardırlar. Təsadüfi deyil ki, çıxışlarının birində İlham Əliyev özünü paralimpiyaçılarının dostu hesab etdiyini fəxrlə bildirmişdi. Ancaq onu təkcə paralimpiyaçıların dostu kimi qəbul etmək ədalətsizlik olardı və birmənalı olaraq möhtərəm prezidentimiz ölkə idmanının, bu idmanın bayraqdarlarının timsalında millətin dostudur.

# Rəsm müsabiqəsinin qalibləri mükafatlandırıldı



3 saylı Uşaq-Gənclər İnkişaf Mərkəzində "Olimpiya Mədəniyyəti və Təhsil Proqramı" (OCEP) çərçivəsində iştirak edən məktəblər arasında XV Avropa Gənclər Olimpiya Festivalına həsr olunmuş "İdman - sağlamlıq, dostluq, birlik..." mövzusunda keçirilən rəsm müsabiqəsinə yekun vurulub. Tədbirdə Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə, baş katibin müavini Azər Əliyev, təhsil nazirinin müavini Firudin Qurbanov və digər rəsmi qonaqlar iştirak ediblər. Qonaqlar müsabiqəyə təqdim edilmiş rəsm əsərlərindən ibarət sərgiyə baxış keçirdikdən sonra qaliblərin mükafatlandırma



mərasimində iştirak ediblər. Müsabiqəyə 45 məktəbdən 6-10 yaş kateqoriyasında 60 və 11-14 yaş kateqoriyasında 96 olmaqla ümumilikdə 156 əsər təqdim edilmişdi. Tədbirin açılış mərasimində çıxış edən Çingiz Hüseynzadə rəsm müsabiqəsinin əhəmiyyətindən danışıb. Onun sözlərinə görə, məhz bu kimi tədbirlər XV Avropa Gənclər Olimpiya Festivalının daha geniş mahiyyətini ictimaiyyətə çatdırmaqda misilsiz rola malikdir. Çingiz Hüseynzadə



çıxışının sonunda müsabiqənin təşkilində xüsusi zəhməti olan 3 saylı Uşaq-Gənclər İnkişaf Mərkəzinin kollektivinə, Təhsil nazirliyinə, Bakı şəhər Təhsil İdarəsinə, həmçinin Təşkilat Komitəsinə və münsiflər heyətinə xüsusi təşəkkürünü bildirib. Daha sonra çıxış edən Firudin Qurbanov XV Avropa Gənclər Olimpiya Festivalının irsi çərçivəsində Bakı şəhərindən seçilmiş 49 məktəbin iştirakı ilə həyata keçirilən "Olimpiya Mədəniyyəti və Təhsil Proqramı"nın məktəblilər üçün əhəmiyyətindən söz açıb. Firudin müəllim rəsm müsabiqəsinin Avropa Gənclər Olimpiya Festivalının gənclər arasında təbliğatı, həmçinin Olimpiya təhsilinin məktəblilər arasında təşviqində fərqli və yaradıcı bir vasitə olduğunu xüsusi vurğuladı. Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdiri Rəşad Tağıyev və Azərbaycan Rəssamlar İttifaqının katibi, xalq rəssamı, professor Ağaəli İbrahimov çıxışlarında müsabiqəyə təqdim edilən əsərlərin təkcə münsiflər heyətinin deyil, həm də proqramın "Facebook" səhifəsi üzərindən geniş ictimaiyyət tərəfindən qiymətləndirilməsinin fərqli və maraqlı yenilik olduğunu qeyd ediblər. Belə yanaşma məktəblilərin əl işlərini daha geniş ictimaiyyətə çatdırmağa kömək edir. Tədbirin sonunda müsabiqənin qaliblərindən ibarət 34 nəfərə (1-ci yer 6 nəfər, 2-ci yer 12 nəfər və 3-cü yer 16 nəfər) Təşkilat Komitəsinin qiymətli hədiyyələri və diplomları təqdim edilib. Tədbir zamanı 3 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin uşaqlardan ibarət yaradıcılıq kollektivi müxtəlif mahnı və rəqs nömrələri ilə iştirakçılara xoş əhval-ruhiyyə bəxş ediblər.

Tədbirdən sonra rəsm müsabiqəsinin münsiflər heyətinin üzvləri və qalib olan iştirakçılar fikirlərini "Olimpiya dünyası" qəzeti ilə bölüşüblər.



### "Müsabiqədə iştirak edən balaca rəssamlar əl işləri ilə bizi təəccübləndirdilər"

*Arif Hüseynov (Münsiflər heyətinin üzvü, xalq rəssamı, professor):*

- Müsabiqəyə 45 məktəbdən ümumilikdə, 156 əsər təqdim edilmişdi. Onların arasından seçilmiş ən yaxşı əsərlər 3 saylı Uşaq-Gənclər İnkişaf Mərkəzində nümayiş etdirilən sərgidə yer aldı. Rəsm müsabiqəsinə, həqiqətən də, maraqlı rəsm əsərləri təqdim olunmuşdu. Bu əsərlər arasında ən yaxşıları seçmək bizim üçün çox çətin idi. Müsabiqədə iştirak edən balaca rəssamlar öz əl işləri ilə bizi təəccübləndirdilər. Beynəlxalq arenalarda Azərbaycanın bayrağını dalğalandıran, himnini səsləndirən idmançıların gənc rəssamların əsərlərində təbliğ olunması çox gözəl haldır. Düşünürəm ki, bu müsabiqə onların həyatında çox önəmli hadisədir. Qalib gələn iştirakçıları təbrik edirəm.

### "Müsabiqəyə təqdim olunan əl işlərində səmimilik var idi"

*Ziyadxan Əliyev (Əməkdar İncəsənət Xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru):*

- Müsabiqədə iştirakçıların əl işlərinin dəyərləndirilməsində respublikanın tanınmış rəssamları, sənətşünasları iştirak edirdilər. Münsiflər heyəti müsabiqəyə təqdim olunan bütün rəsm əsərlərini ədalətli şəkildə qiymətləndiriblər. Çalışmışıq ki, bu mövzuda çəkilən ən yaxşı rəsmləri dəyərləndirək. İdman mövzusunda rəsm əsəri çəkmək heç də asan deyil. Burada hərəkət, dinamika, temp və müxtəlif mimikalar var. Bunları rəsm əsərində təsvir etmək üçün rəssamdan böyük hazırlıq tələb olunur. Rəsm əsərlərinə baxdıqda, müsabiqədə iştirak edən uşaqların bu çətin mövzunun öhdəsindən layiqincə gəldiyini görmək olar. Bundan başqa, müsabiqəyə təqdim olunan əl işlərində səmimilik var idi. Uşaq rəsmlərini böyüklərin çəkdiyi rəsm əsərlərindən fərqləndirən də məhz səmimilikdir.

### "Qalib olduğum üçün çox sevinirəm"

*Səkinə Bədirova (rəsm müsabiqəsinin qalibi):*

- Humanitar Fənlər Təmayüllü Məktəb Liseyinin 5-ci sinfində təhsil alıram. 3-cü sinifdən rəsmlə məşğul oluram. Yəni bu günkü uğurum təsadüfi deyil. Direktor müavinimiz mənə bu müsabiqədə iştirak etməyi təklif etdi. Özümə inanaraq müsabiqədə iştirak etdim və qalib oldum. Çəkdiyim rəsm əsərində idmançı əlində məşəl ilə Azərbaycanı təmsil edir. Müsabiqədə iştirak etdiyim və qalib olduğum üçün çox sevinirəm. Düzdür, bu əsəri ərsəyə gətirmək vaxtımın böyük bir hissəsini alsa da, nəticə çəkdiyim əziyyətə dəyərdi.

### "Rəsm əsəri ilə dünya dövlətlərinin birliyini təsvir etməyə çalışdım"

*Əzizə Əfəndiyeva (rəsm müsabiqəsinin qalibi):*

- Humanitar Fənlər Təmayüllü Məktəb Liseyinin 6-cı sinifində təhsil alıram. Çəkdiyim rəsm əsərində yer kürəsi üzərində bayraqlar əks olunurdu. Bu rəsm əsəri ilə dünya dövlətlərinin birliyini təsvir etməyə çalışdım. Düşündüm ki, müsabiqədə iştirak edənlər Azərbaycan haqqında rəsm əsəri çəkəcək və bu ideyaya toxunan olmayacaq. Ona görə də dünyanın birliyini göstərən rəsm əsəri çəkməyi qərara aldım. Qalib olduğum üçün çox sevinirəm.

### "Mükafatçılar arasında yer aldığıma görə çox sevinirəm"



*Ləman Ələsgərli (rəsm müsabiqəsində ikinci yerin sahibi):*

- Humanitar Fənlər Təmayüllü Məktəb Liseyinin 2 C sinfində təhsil alıram. Rəsm əsərini idman və sağlamlıq haqqında çəkmişdim. Həmin əsərdə uşaqlar müxtəlif idman növləri ilə məşğul olurlar. Bununla da onlar öz sağlamlıqlarının qeydinə qalırlar. Rəsm çəkməyə böyük həvəsim var. Yeri gəlmişkən, deyim ki, qəşəng rəsm əsərlərim var. Bu müsabiqədə öz yaş qrupum üzrə ikinci yeri tutdum. Mükafatçılar arasında yer aldığıma görə çox sevinirəm.

***İyulun 3-14-də İtaliyanın Napoli şəhərində Tələbələrin XXX Yay Universiadası təşkil olunacaq. İştirakçıların sayına görə, planetin ən böyük idman tədbirlərindən biri olan universiada yarışlarına bu il də böyük maraq var. 18 idman növü üzrə keçiriləcək yarışlarda ümumilikdə, 8 mindən çox idmançı mübarizə aparacaq. Mötəbər idman yarışında Azərbaycan idmançıları da qüvvələrini sınayacaqlar. Komandamız Napoli Universiadasında 6 idman növündə 21 idmançı ilə təmsil olunacaq. Buyaxınlarda "Gənclik" Tələbə İdman Cəmiyyətinin Respublika Şurasının sədri Tofiq Xanəliyevlə görüşdük. Müsahibimiz Napoli Universiadasına hazırlıq və digər məsələlər barəsində qəzetimizə ətraflı məlumat verdi.***

# "İnanıram ki, Napoli Universiadası yığma komandamız üçün uğurlu olacaq"

***- Tofiq müəllim, buyaxınlarda Napolidə təşkil olunan tədbirdə iştirak etdiniz. Universiadaya hazırlıq prosesi yekunlaşıb?***

- Bildiyiniz kimi, bu il Tələbələrin XXX Yay Universiadası İtaliyanın Napoli şəhərində keçiriləcək. Buyaxınlarda elə bu məsələ ilə bağlı İtaliyada konfrans təşkil olundu. Napolidə təşkil olunan konfransda universiadada iştirak edəcək ölkələrin nümayəndələri iştirak edirdilər. Tədbirdə yarışa hazırlıq, idman obyektləri, hotellər və digər məsələlər barədə məlumatlar verildi. Demək olar ki, hazırlıq işləri yekunlaşıb. İdman obyektləri, idmançıların məskunlaşacağı məkanlar və hotellər yarış üçün tam hazır vəziyyətə gətirilib. Bir sözlə, yarışla bağlı hər şey tam qaydasındadır.

***- Bəs komandamız bu böyük idman tədbirinə necə hazırlaşır?***

- Komandamız Napoli Universiadasında 6 idman növündə 21 idmançı ilə təmsil olunacaq. Tələbə-idmançılarımız bu yarışlarda atletika, cüdo, qılıncoynatma, bədii gimnastika, idman gimnastikası və taekvondo idman növlərində iştirak edəcəklər. Komandamız universiada yarışlarına yüksək səviyyədə hazırlaşır. Azərbaycan idmançıları hər zaman tələbələrin yay universiadalarında ölkəmizə medallar qazandırıblar. İnanıram ki, atletlərimiz Napoli Universiadasında da bu uğuru təkrarlayaraq ölkəmizə medallarla qayıdacaqlar. Çalışırıq ki, ən güclü idmançılarımız Napolidə iştirak etsinlər. Əminliklə deyə bilərəm ki, komandamızın heyəti təcrübəli idmançılardan formalaşıb.

***- Qeyd etdiniz ki, komandamız bu yarışda güclü idmançılarla təmsil olunacaq. Maraqlıdır, idmançılarımızdan hansı nəticələri gözləyirsiniz?***

- Taekvondo, atletika, cüdo idman növlərində nəticələr gözləyirəm. Əsas medal ümidlərimiz qeyd etdiyim bu idman növlərində çıxış edəcək idmançılaradır. Lakin bu o demək deyil ki, digər idmançılarımız zəifdir və biz onlardan medal gözləmirik. Komandamızda yer alan hər bir idmançımız medal qazanmaq potensialına malikdir. İnanıram ki, Napoli Universiadası komandamız üçün uğurlu olacaq.

***- Universiada yarışlarında hər zaman 10 mindən çox idmançı iştirak edirdi. Napoli-2019-da isə bu rəqəm təxminən 8 minə bərabərdir. Builki universiadada iştirakçıların sayının az olması nə ilə əlaqədardır?***

- 18 idman növü üzrə keçiriləcək Napoli Universiadasında ümumilikdə 8 mindən çox tələbə-idmançı mübarizə aparacaq. Bu say digər illərdə təşkil olunan universiadalarla müqayisədə azdır. Qeyd edim ki, bundan əvvəlki universiadalarda təxminən 14-15 minə yaxın idmançı iştirak edib. Bu dəfəki universiadada iştirakçıların sayının az olması İtaliyada atletlərin qalması üçün nəzərdə tutulan yaşayış yerlərinin az olması ilə əlaqədardır. Napolidə Atletlər kəndi yox idi. Əslində builki universiada yarışları Braziliyada təşkil olunmalı idi. Lakin Braziliya şəhərinin meri dəyişdirildikdən sonra, yeni təyin olunan mer yarışdan imtina etdi. Bu səbəbdən də Beynəlxalq Universitet İdmanı Federasiyası (FİSU) onları beynəlxalq məhkəməyə verdi. Belə olan halda, yarışların təcili olaraq İtaliyanın Napoli şəhərində keçirilməsi qərara alındı. Əslində idmançıların qalması üçün 15 min nəfərlik yaşayış yeri tikilməli idi. Lakin İtaliya rəhbərliyi vaxta görə bu məsələləri çatdıra bilmədi. Elə bu məsələlərə görə onlar atletlərin qalması üçün 8 min nəfərlik



yaşayış yeri inşa edə biliblər. Bunun üçün FİSU bizə və digər ölkələrin nümayəndələrinə məktub göndərərək bildirib ki, idmançıların sayı mümkün qədər azaldılsın. Yəni yer məhdudiyyətinə görə komandamız universiada yarışlarında geniş heyətlə təmsil oluna bilməyəcək.

***- Bu problem universiadanın proqramına daxil olan idman növlərinin də sayına təsir edib?***

- Bəli. Ümumiyyətlə, Tələbələrin Ümumdünya Yay Universiadası 11 idman növündən az olmayaraq keçirilməlidir. Bu, yarışların qaydasıdır. Universiadaya ev sahibliyi edən ölkə əlavə olaraq yarışın proqramına öz istəklərinə uyğun yeni idman növlərini daxil edə bilər. Buna misal olaraq 2013-cü ildə təşkil olunan Kazan Universiadasını göstərmək olar. Bu universiadada yarışlar 25 idman növü üzrə keçirilirdi.

***- Tələbərin Yay Universiadası ilə İkinci Avropa Oyunları arasındakı müddət çox azdır. Bu məsələ güclü idmançılarımızın universiadada iştirak etməməsinə təsir etməyəcək?***

- Belə hal cüdoçularda yaranmışdı. Azərbaycan Cüdo Federasiyasından bizə bildirmişdilər ki, cüdoçular unversiadadan sonra Tokio-2020 Yay Olimpiya Oyunlarına lisenziya verən yarışda iştirak edəcəklər. Federasiya zədə səbəbinə görə bundan bir qədər ehtiyat edirdi. Digər idman növlərində isə belə hal müəyyən olunmayıb.

***- Napolidə yarış ərəfəsində hansı tədbirlər keçiriləcək?***

- FİSU-nun tədbirləri çox olur. Bu il də belə olacaq. Universiada çərçivəsində müxtəlif konfranslar təşkil olunacaq.

*Azər Əlizadə*



# II AVROPA OYUNLARI

## “Olimpiya dünyası”nın foto-obyektivinin gözü ilə




































Futbol



Mobil İSMAYILOV

# Başa çatmış futbol mövsümünün təəssüratları

*(əvvəli qəzetimizin 22-ci və 23-cü saylarında)*

"Verder" komandasının heyətində 39 yaşlı Klaudio Pissarro bu mövsüm də qollar vurmaqla azarkeşləri təəccübləndirdi.

Nəhayət, Bundesliqa uğrunda "Ştutqart" - "Yuniyon-Berlin" komandaları arasında son keçid matçından sonra berlinlilərin möhtəşəm ab-hava yaratmaları, fişənq tüstüsünün stadionu bürüməsi, azarkeşlərin mühafizə qurğularını adlayıb meydana doluşmaları, təhlükəsizlik əməkdaşlarının həyəcanlı şəkildə heç bir tədbir görə bilməmələri, rəqib komandanın oyunçularının qorxu altında tələsik meydanı tərk etmələri Almaniya Çempionatında yadda qalan məqamlardan biri oldu.

Bu mövsüm əsil "Ayaks" möcüzəsi gördük. Sürətli, yüksək fiziki hazırlığa malik gənc oyunçulardan ibarət Amsterdam klubu ən böyük sürpriz etdi. Futbolçuların hamısı cəld hərəkətləri ilə seçilirdi. Gecikən, ləng tərpənən oyunçuya rast gəlinmədi. Rəqib komandaya qarşı ustalıqla pressinq tətbiq etməyi bacaran "Ayaks" çox istəkli, həvəsli təsir bağışlayırdı. Dərhal rəqibin başının üstünü kəsdirir, sanki topa, digər komandanın üzvlərinə tərəf şığıyırdılar. Oyunçuların bir-birini anlaması əla səviyyədə idi. Xüsusən, "Real" səddini keçdikdən sonra komandada yüksək əhvali-ruhiyyə hökm sürürdü. Ulduz futbolçusu olmayan, amma bütün mövqelərdə əla oyunçulara malik komanda nəticədə qələbəni təmin edirdi. Adətən mövsümün sonuna yaxın komandalarda yorğunluq müşahidə olunmağa başlayır. "Ayaks" isə əksinə, daha da əzmkar görünürdü. Bəli, azarkeşlər gənc, peşəkar futbolçulardan formalaşmış, kollektiv, əzmkarlıq nümayiş etdirən yeniləşmiş Hollandiya klubu gördülər. Şübhə yoxdur ki, tezliklə şöhrət qapıları da bu komandanın oyunçularının üzünə açılmağa başlayacaq.

İtaliya və Fransa çempionatlarında həm "Yuventus"un, həm də PSJ-nin heyətlərinin digər komandalarla müqayisədə açıq-aşkar üstün olması əvvəlcədən bəlli idi. Hər iki komandanın növbəti dəfə də şəriksiz lider olduqları ölkə birinciliyində artıq ilk dövrədən sonra məlum oldu ki, adı çəkilən klublar bu mövsümdə də çempion titulunu asanlıqla əldə edəcəklər. Artıq neçə illərdir ki, rəqabətsiz keçən İtaliya və Fransa çempionatları azarkeşlərdə elə də böyük maraq doğurmur. Hər iki ölkənin ən güclü komandalarının Çempionlar Liqasında yüksək uğur qazanacaqları gözlənilirdi. Əslində hər iki komanda liqanın qalibi adına namizədlər siyahısında göstərilirdi. Lakin təəssüf ki, bu ehtimallar da özünü doğrultmadı. Rəqabət olmayan çempionatlarda da favoritlərin "Mançester Yunayted"ə və "Ayaks"a uduzmaları təbii və ədalətli qəbul edilməlidir. Təkcə elə bu baxımdan favorit göstərilən komandaların büdrəməsində təəccüblü heç nə yoxdur.

Ümumiyyətlə, futbolda da favorit komanda gözlənilmədən uğursuzluğa məruz qala bilər (Məgər idmanın bəzi növlərində də belə deyil?! - müəllifin qeydi). Bütün komponentlərdə güclü hesab etdiyimiz komanda rəqibdən üstün görünsə də, bəzi hallarda mülahizələr, proqnozlar nəinki özünü doğrultmur, hətta alt-üst olur. Dünya çempionatından sonra hamı Xorvatiya macərasından danışırdı. Az müddət keçmişdi ki, Xorvatiya Millətlər Liqası yarışlarında heç kimin gözləmədiyi halda adına yaraşmayan bir tərzdə İspaniya yığmasına rüsvayçı hesabla məğlub oldu. Avropa çempionatının qrup mərhələsində isə öz meydanında Azərbaycan yığmasına çətinliklə qalib gəldi. Daha sonra növbəti oyunda Macarıstana uduzdu. Bəli, bu futboldur... Ona görə də müasir futbolda təhlillər, ehtimallar, yanaşmalar nisbidir.

Əvvəlki yazılarımın birində təcrübəli Ernesto Valverdeni yaxşı məşqçilər siyahısında gördüyümü bildirmişdim. Bu gün də o fikirdəyəm. Artistizmdən uzaq, ciddi, tələbkar, reputasiyası müsbət olan məşqçidir. Lakin onun "Barselona" kimi komandaya gətirilməsi birmənalı qarşılanmadı.

Məlum olduğu kimi "Barselona" dünyada sevilən, həmişə öz uzaq və yaxın keçmişi ilə fəxr edən, böyük azarkeş ordusuna malik, özünəməxsus ənənələri ilə fərqlənən, öz dəst-xətti, daim diqqət mərkəzində olan bir komandadır. Yaddan çıxarmaq lazım deyildir ki, burada həm futbolçular, həm də gələn məşqçi üçün bir Messi amili də vardır. Ona görə də Valverde təyin olunan gündən azarkeşlər, mütəxəssislər, idman yazarları tərəfindən tam qəbul edilmədi. Çoxları onu "Barselona"ya uyğun məşqçi hesab etmirdilər. Valverde işləmiş olduğu əvvəlki klublarda özünü daha yaxşı tərəfdən göstərə bilmiş və müəyyən uğurlar da qazanmışdı. Kataloniya klubunda isə onu çətin sınaqlar gözləyirdi. Müşahidələr, proseslər göstərdi ki, ümumiyyətlə, Qvardiolanın gedişindən sonra təyin edilən bütün məşqçilərdə olduğu kimi Valverde də üzləşdiyi sınaqların, problemlərin öhdəsindən gəlməkdə müəyyən çətinliklər çəkir. Artıq iki mövsümdür ki, "Barselona"da çalışan Valverde hələ də ehtiyatla hərəkət edir, sanki rahat işləyə bilmir, ideyalarını, sxemlərini həyata keçirməkdə əziyyət çəkən mütəxəssis təsiri bağışlayır. Zərurət yarandığı hallarda lazımi dərəcədə qətiyyət göstərə bilməyən baş məşqçinin bəzi oyunçulardan çəkinməsi də hiss olunur. Xüsusən, əvəzetmələr zamanı bəzən tərəddüd etməsi və kritik situasiyalarda hərdən çarəsiz görünməsi nəzərdən yayınmır.





Futbolçuların fərdi xüsusiyyətlərinin dəyərləndirilməsində fikirləri, eləcə, də hər dəfə növbəti matça heyətin komplektləşdirilməsində seçimi, variantları düzgün analitik təhlilə tam uyğun gəlməməklə konkret oyun planı ilə üst-üstə düşməməsi kimi görünür.

Düşünürəm ki, Valverde digər klublarda daha rahat işləyə bilər. Amma bu günlərdə "Barselona"nın prezidenti jurnalistlərə bildirdi ki, Valverde ilə müqavilə vardır və o, komandada qalacaq.

"Barselona"nın keçən mövsüm "Roma"ya 0:3, bu mövsüm isə "Liverpul"a 0:4 hesablı məğlubiyyəti təsadüfdürmü? Əlbəttə, yox. Ardıcıl iki dəfə bu cür təsadüf ola bilməz. Elə İspaniya çempionatının özündə ortabab, hətta zəif komandalar da bilir ki, hücumlara aludə olan və arxa xətlərdə boşluqlara yol verən "Barselona"nın qapısına əks hücumlar zamanı, eləcə də, standart vəziyyətlərdən qol vurmaq mümkündür. Hələ Luis Enrikenin vaxtından üzü bəri Kataloniya klubu bu "xəstəliyə" mübtəla olub. Təkcə elə bu baxımdan La Liqada "Barselona" pərəstişkarlarına, azarkeşlərə azmı həyəcan yaşadıb?! Bax, Kataloniya komandasının Çempionlar Liqasında iki böyük hesablı məğlubiyyətinin köklərini də hər şeydən əvvəl bu "xəstəlikdə" axtarmaq lazımdır. Təbii ki, digər səbəbləri də bura əlavə etmək mümkündür. Müasir futbolda böyük uğurlar qazanmaq üçün istənilən mövqedə yüksək səviyyəli oyunçular olmalıdır. Bəs bu gün "Barselona"da bəzi futbolçuların durumu necədir? Onları obyektiv surətdə necə dəyərləndirmək olar?

Bu, geniş bir yazının predmeti olsa da, mövzuya qısaca toxunmaq yerinə düşər.

Gəlin, etiraf edək ki, "Barselona"da futbolçuların heç də hamısını nadir nüsxələr hesab etmək olmaz. Tomas Vermalen oyun keyfiyyətlərinə görə əslində ortabab bir müdafiəçidir. Samuel Umtiti ciddi zədədən sonra uzun müddət yaşıl meydanlardan kənarda qaldı. Sonradan heyətə qatılsa da, əvvəlki formasını bərpa etmədiyinə görə daha çox ehtiyatda qalır. Buskets də artıq əvvəlki deyil. Serji Roberto ümumiyyətlə, həmişə ləng təsir bağışlayıb. Son vaxtlar isə 90 dəqiqə tab gətirmir, yorğunluğu hiss olunur. Oyunun axırlarına yaxın bərk yorulanda sanki ləngər vura-vura qaçır. Ona görə də bir qayda olaraq əvəzlənir. Yaş öz təsirini göstərsə də, Arturo Vidal çalışqandır, istəklidir. Lakin cəld və sürətli deyil, zərbələri də dəqiq olmur. Halbuki müasir futbolda bu keyfiyyətlər çox vacibdir. Eyni zamanda tez-tez şərt oyunu və qayda pozuntuları ilə də yadda qalır. Filipe Koutinyo əksər hallarda elə təsir bağışlayır ki, sanki məşqə və yaxud yoldaşlıq oyununa çıxıb. Zədəyə meyilli gənc Usman Dembele texnikalı və sürətli olmasına baxmayaraq, hələ də komandaya tam alışmayıb. Ona görə də komandaya elə də fayda verə bilmir. Luis Suares çətin situasiyalardan gözlənilməz qollar vursa da, əksər hallarda sadə vəziyyətlərdə qol imkanlarını qaçırır. 31 yaşlı Kevin Prins Boatenqin icarə əsasında "Barselona"ya gəlişini çoxları hələ bu günə qədər də anlaya bilmir (yəqin ki, elə Arda Turanın transferinə oxşar bir məsələdir - müəllifin qeydi). Ancaq indi futbol aləmində elə məsələlər var ki, azarkeşlərə, mütəxəssislərə anlaşılmaz görünsə də, komandanın prezidentinin, rəhbərliyinin müəyyən məqsədləri olur. Nəhayət, dünyanın ən peşəkar, təcrübəli, etibarlı qapıçılarından sayılan Mark-Andre Ter Steqen məhz "Liverpul" ilə oyunda Barselona şəhərində əla oyunu ilə yadda qalmasına baxmayaraq, cavab matçında ən uğursuz oyunlarından birini keçirdi. Fikrimizi yekunlaşdıraraq sonda məşqçi səhvlərini (Valverde hər iki cavab matçında böyük hesablı qələbə üstünlüyünü qoruyub saxlamaqdan ötrü heyətdə gözlənilməz dəyişikliklərə əl atmalı və müəyyən faktiki gedişlər tətbiq etməli idi - müəllifin qeydi) də şərh olunanlara əlavə etsək, "Barselona"nın yuxarıda qeyd edilən iki acınacaqlı məğlubiyyətinin səbəblərini əslində açmış olduq. Bəlkə də, ən başlıcası "Roma" və "Liverpul"dan sadəcə əzmkarlıq yox, böyük əzmkarlıq gördük.

Tam haqlı olan bəzi mütəxəssislər kimi mən də düşünürəm ki, müasir dövrdə əla futbolçu olmağın əsas şərti sürət göstəricisidir. Hətta atlet idmançılar kimi sürətli qaçmaq lazımdır. Ən azından qaçış meydanında qısa məsafələrdə qaçan və rekordlar müəyyən edən atletlər kimi...



Sürəti, texnikası və komanda ilə birgə mükəmməl oynamaq bacarığı ilə seçilənlər tez bir zamanda ulduz futbolçulara çevrilirlər.

Klub daxilindəki proseslərdən bəzən azarkeşlərin xəbəri olmur. Məsələn hansısa komandalarda maliyyə problemləri yarana bilər. Belə hallarda klub rəhbərliyi də qabaqcıl vacib oyunçularını satmağa məcbur olur. Bəzi futbolçular isə transfer olunduqları klublarda öz qabiliyyətlərini daha bariz şəkildə göstərə bilmirlər. Nəticədə həmin klublarda duruş gətirə bilmirlər və başqa komandalara keçməli olurlar. Bəzi futbolçular da var ki, istedadlı olsalar da, gəldiyi klublarda müxtəlif səbəblərdən sadəcə möhkəmlənə bilmirlər. Ona görə də belələri digər komandalara icarəyə verilirlər.

Başa çatmış mövsümdə belə hallara çox rast gəlindi. Çoxsaylı faktlar futbolsevərlərə, azarkeşlərə yaxşı bəlli olduğundan konkret adlar göstərməyə yazının həcminin böyüməsi baxımından ehtiyac duymuram.

Müasir dövrdə futbol "bazarı" bütövlükdə futbol dünyasına çox təsir edir. Bu, yaxşıdırmı, pisdirmi - hər bir halda bu günkü futbol aləminin gerçəkliklərindir. Bu gün belədir, yəqin, sabah da belə meyllər, proseslər davam edəcək. Azarkeş, tamaşaçı stadionlarda tanınmış, adlı-sanlı məşqçi, ulduz futbolçular görmək istəyir. Marketinq qayda-qanunlarına uyğundur bütün bunlar...

Düşünürəm ki, gələcəkdə futbol da tədricən xüsusi proqramlar, planlar, müəyyən yanaşmalar, yeni anlayışlar üzrə modernizasiyaya uğrayacaq.

Başa çatmış futbol mövsümünün təəssüratlarını, fikirlərimi Azərbaycan futbolunun bu günkü durumu ilə bitirmək istəyirəm. Təəssüf ki, bu mövsüm də bizim futbolumuzla bağlı xüsusi qeyd ediləsi bir təəssürat yoxdur. Bu mövzuda mən artıq bir dəfə ətraflı təhlilə əsaslanan geniş məqaləni oxucalara təqdim etmişəm. Çətinliklər, problemlər bu gün də mövcuddur. Burada həm obyektiv, həm də subyektiv səbəblər vardır. Hər halda növbəti məşqçi dəyişikliyi də baş verib. Lakin başlıca məqsəd Azərbaycanı futbol ölkəsinə çevirməkdən ibarət olmalıdır.

Yalnız belə olan halda bizə yuxarıdan aşağıya baxmayacaqlar. Onda bizə qarşı aparılan paxıl, iyrənc təbliğatın da təsiri heçə enəcək. Yoxsa, hava limanında ingilis komandalarının futbolçularını nağaraçılar dəstəsi ilə qarşılamaqla nəyəsə nail olmaq mümkün deyildir. Bir sözlə, futbolumuzda əsaslı dönüş yaratmalıyıq ki, bizimlə hesablaşsınlar. Qısa müddətdə nəyin bahasına olursa-olsun, futbolumuzu tanıtdırmalıyıq. Mən optimistəm, buna əminəm. İnanıram ki, tunelin sonunda işıq olacaq... Özü də tezliklə o işığı görəcəyik... Futbolsevərlərimiz, azarkeşlər buna inanır, Azərbaycan futbolunun uğurlarını səbirsizliklə gözləyirlər.

# Azərbaycan güləş yığması Avropa çempionatını uğurla başa vurdu

## *4 güləşçimiz Avropa çempionu oldu*




Yunan-Roma güləşi üzrə millimizin ardınca sərbəst güləş üzrə yığmamız da qitə birinciliyini uğurlu nəticələrlə başa vurub. Böyük məşqçi Əsgərxan Novruzov və məşqçi Elşad Allahverdiyevin rəhbərliyi altında mübarizə aparan sərbəst güləşçilərimiz İtaliyada 7 (1 qızıl, 2 gümüş, 4 bürünc) medal qazanıblar. Bu nəticə ilə millimiz 153 xal toplayaraq komanda hesabında Avropa ikincisi olub. Rusiya 190 xalla birinci, Gürcüstan isə 140 xalla üçüncü yeri tutub.

İyunun 17-dən 23-dək İtaliyanın Faenza şəhərində keçirilən yeniyetmə güləşçilər arasında Avropa çempionatına yekun vurulub.

Azərbaycan güləş yığması yarışları 15 (4 qızıl, 3 gümüş və 8 bürünc) medalla başa vurub.

Avropa çempionu adına yunan-Romaçılar arasında Fərid Sadıqlı (45 kq), Məlik Əliyev (48 kq) və Nihat Məmmədli (55 kq), sərbəst güləşçilər arasında isə Sabir Cəfərov (60 kq) layiq görülüblər.

Yarışların ilk günlərində böyük məşqçi Taleh İsrafilov və Nazim Əhmədovun rəhbərliyi altında mübarizə aparan yunan-Roma güləşçilərindən Laçın Vəliyev (92 kq) gümüş, Xasay Həsənli (65 kq) ilə Allahverdi Əliyev (71 kq) isə bürünc medala sahib oldular. Beləliklə, yunan-Roma güləşi üzrə yığmamız yeniyetmələr arasında Avropa çempionatında 2-ci yeri tutub. Komandamız yarışları 3 qızıl, 1 gümüş və 2 bürünc medalla başa vurub.

Qeyd edək ki, yığmanın üzvü Sabir Cəfərov (60 kq) qızıl medal alıb. Murad Haqverdiyev (45 kq) ilə Cəbrayıl Hacıyev (65 kq) gümüş, Kənan Heybətov (51 kq), Zirəddin Bayramov (55 kq), Saqadulla Ağayev (92 kq) və Hamlet Nəsibli (110 kq) isə bürünc medala sahib çıxıblar.

Qızların yarışında böyük məşqçi Həsrət Məmmədyarov və məşqçi İsaməddin Hüseynovun tapşırıqlarını yerinə yetirən güləşçilərimizdən Birgül Soltanova (57 kq) və Elnurə Məmmədova (53 kq) fərqlənib. Xanım güləşçilərimiz Avropa çempionatının bürünc medalla başa vurublar.

Qeyd edək ki, qitə birinciliyində beynəlxalq dərəcəli hakim Kamran Əliyev ədaləti qoruyub.

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının stadionunda 2002-2003-cü illər təvəllüdlü yeniyetmələr arasında atletika üzrə Azərbaycan birinciliyi yekun vurulub. Gənclər və İdman Nazirliyinin Azərbaycan Atletika Federasiyası (AAF) ilə birgə təşkil etdiyi turnirdə 120-yə yaxın atlet birincilik uğrunda mübarizə aparıb.

Yarışda paytaxt klublarından başqa Sumqayıt, Gəncə, İsmayıllı, Bərdə və Xızıdan olan atletlər də iştirak ediblər.

## *Yeniyetmə atletlərin ölkə birinciliyi keçirilib*



Ölkə birinciliyinin ilk günündə oğlanlar arasında uzunluğa tullanma yarışında Kəsgin Abbaszadə, hündürlüyə tullanmada Aydın Bədəlov və nüvətələmədə Yusif Nəzərov qalib adını qazanıb. Qızların yarışında isə uzunluğa tullanmada Ülviyyə Cabbarova, nüvətələmədə isə Günel Hüseynova birinci yerə layiq görülüb.

Oğlanlar arasında qaçış yarışlarında Əli Abdıyev (200 m), Vahid Kərimov (800 m) və Eldar Qurbanlı (3000 m) birinci olub. Qızların mübarizəsində isə Lamiyə Vəliyeva (200 m) və Günel Manafova (800 m) fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Qaliblər diplom və medallarla təltif olunublar.




## *Qitə çempionatından 6 medal*

Rumıniyanın Arad şəhərində şito-ryu karate üzrə VII Avropa çempionatı keçirilib. Karateçilər Avropa çempionatında uğurla çıxış edərək 6 medal qazanıblar. Qitə çempionatında federasiyanın birinci vitse-prezidenti Natiq Hüseynovun rəhbərliyi altında mübarizə aparan idmançılarımız həm şəxsi, həm də komanda yarışlarında fərqləniblər. Şəxsi yarışlarda Mehman Eynalov 80 kq çəki dərəcəsində ikinci, açıq çəkidə isə üçüncü yeri tutub. Fuad Əliyev isə 80 kq-dan yuxarı çəkidə bürünc medal qazanıb. Yığmamızın daha bir üzvü Rəsul Əlizadə 80 kiloqramdan yuxarı çəkidə gümüş, açıq çəkidə bürünc medal qazanıb. Heyətində Mehman Eynalov, Rəsul Əlizadə, Fuad Əliyevin yer aldığı karateçilərimiz komanda yarışında üçüncü yerə layiq görülüblər.

## Ustad ağırlıqqaldıranlarımız Finlandiyadan 2 medalla qayıdıblar

Finlandiyanın Rovaniemi şəhərində ustad ağırlıqqaldıranlar arasında Avropa çempionatı keçirilib. 30-dan çox ölkədən 500-ə yaxın atletin iştirak etdiyi yarışda Azərbaycan təmsilçiləri də körpücük üzərinə çıxıblar.

Çempionatda kişi ustad ağırlıqqaldıranlarımızdan Akif Alıyev M-60 (60-64 yaşadək) qrupunda 55 kq çəki dərəcəsində qüvvəsini sınayıb. O, ümumilikdə 124 kq (58+66) nəticə ilə Avropa çempionatının gümüş medalına sahib olub.

M-70 (70-74-yaşadək) qrupunda 96 kq çəki dərəcəsində isə Vladimir Jilyayev mübarizə aparıb. Təmsilçimiz ümumilikdə 163 kq (72+91) nəticə ilə Avropa çempionatında ikinci yeri tutub.





İyunun 23-də Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı səfirliyi və Azərbaycan Basketbol Federasiyasının təşkilatçılığı ilə keçirilən basketbol turnirinin qalibləri müəyyənləşib.

# Basketbol turnirinin qalibi müəyyənləşib

Turnirin həlledici görüşündə Şəki-Zaqatala ilə Gəncə-Şəmkir komandaları üz-üzə gəlib. Görüş 74:51 hesabı ilə başa çatıb. Üçüncü yer uğrunda qarşılaşmada isə Cəlilabad komandası Bakını 65:56 hesabı ilə məğlub edərək turnirin bürünc mükafatçısı olub.

Bu turnir Azərbaycan Basketbol Federasiyası, Gənclər və İdman Nazirliyi və Təhsil Nazirliyi ilə birgə Bakıdan kənarda yaşayan 250 gəncin faydalanmasında böyük rol oynayan 12 regional basketbol liqasını inkişaf etdirmək üçün səfirliyin təşkil etdiyi davamlı proqramın bir hissəsidir.

# Şahmat xadimləri ilə uşaqlar arasında ənənəvi görüş

Bakıda fəaliyyət göstərən Dünya Məktəbinin idman kompleksində uşaq və yeniyetmələrlə şahmat ictimaiyyətinin tanınmış nümayəndələri arasında növbəti görüş təşkil olunub.

Tədbirdə iştirak edən şahmatçılar məktəbin şagirdləri ilə eyni anda 50 lövhədə seans keçiriblər. Dörd ildir keçirilən və artıq ənənəyə çevrilən seans oyunları bu dəfə də maraqlı idman mübarizəsi ilə yadda qalıb. Seansda beynəlxalq qrossmeyster Sərxan Quliyev, beynəlxalq usta Kamal Ağasiyev, FİDE ustası Elşad Rzayev, idman ustalığına namizəd Nurlan Rzayev, Azərbaycan İdman Jurnalistləri Assosiasiyasının sədri, Əməkdar jurnalist Eldar İsmayılov, Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin baş məsləhətçisi Salman Abdulov və Şəki Şahmat Məktəbinin direktoru çalışmış Bəhram Çələbi iştirak ediblər.

Tədbirin keçirilməsində əsas məqsəd gənclərin şahmata marağının artırılmasıdır.

**olimpnews.az - sizin saytınız**




Tunisin Hammamet şəhərində savat (Fransa boksu) döyüş növü üzrə dünya çempionatına yekun vurulub.

Kombat versiyası üzrə keçirilən mundiala 54 ölkədən 450 idmançı qatılıb. Azərbaycan Şaolin və Savat Döyüş Sənətləri Federasiyasının prezidenti və millinin böyük məşqçisi Rafiq Əliyevin rəhbərliyi altında çempionatda ölkəmiz 3 idmançı ilə təmsil olunub. Bu növ üzrə milli komandamızın ilk dünya çempionatı olmasına baxmayaraq yığmamız uğurlu nəticəyə imza atıb.

## Dünya çempionatında 2 medal qazanıldı

Həmyerlilərimizdən Nurlan Qədimov (70 kq) və Tural Bayramov (85 kq) bütün rəqiblərini məğlub edərək dünya çempionu olublar. Hər iki idmançımız qalib olmaqla yanaşı, avqust ayında Cənubi Koreyada keçiriləcək döyüş növləri üzrə dünya oyunları və noyabr ayında Fransada baş tutacaq qala döyüşlərinə vəsiqə qazanıblar. Digər idmançımız Bəhruz Çıraqov isə (75 kq) üçüncü yeri tutub.

Respublika Yüksək İdman Ustalığı Məktəbinin direktoru Cəfər Hümbətov və məktəbin kollektivi Gənclər və İdman Nazirliyinin əməkdaşı Müzəffər Nəsibova, dayısı

**Səməndərin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər. Allah rəhmət eləsin!

"Olimpiya dünyası" qəzetinin kollektivi Gənclər və İdman Nazirliyinin əməkdaşı Müzəffər Nəsibova, dayısı

**Səməndərin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!

Olimpiya dünyası

Baş redaktorun müavini: A.B.Şirəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı çap edilir.

*E-mail:* olimpiya_dunyasi@mail.ru
*Ünvan:* Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
*Tel.:* 564-90-49; 564-74-19

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.